# ÜZÜMÜN TARİXİ İNSAN TARİXİ KİMİ QƏDİMDİR

## (Üzümün və üzümçülüyün sirləri araşdırmada)

Aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent, AMEA Genetik Ehtiyatlar İnstitutunun aparıcı elmi işçisi İsmayıl Qəzənfər oğlu Məcidlinin "Üzüm və insan" ("Papirus Nəşriyyat-Poliqrafiya", 2018) adlı elmi-publisistik monoqrafiyası işıq üzü görüb. Kitabın redaktoru aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Afiq Məmmədov, rəssamı Rusiya Federasiyası və Azərbaycan Respublikasının Rəssamlar Birliyinin üzvü, Naxçıvan MR-nın Əməkdar İncəsənət xadimi Elman Cəfərovdur.

Kənd təsərrüfatı sahəsinin işçiləri-aqronomlar, üzümçüklə məşğul olan fermerlər, sahibkarlar, fərdi təsərrüfat sahibləri, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün çox dəyərli olan kitaba A.C.Uinklerin "...üzümün tarixi insan tarixi kimi qədimdir..." cümləsi epiqraf verilib. Bu fikirdə üzüm və insan amilinin bir sırada hallandırılması təsadüfi deyildir. Təbii ki, Tanrı sosial varlıq olan insanı da, bioloji varlıq olan üzümü də bizim üçün məchul olan uzaq bir keçmişdə xəlq edib. Amma maraq orasındadır ki, yuxarıdakı fikirdə bu məsələ yox, mahiyyətdə insanın yaranışından üzüm bitkisindən yararlanması faktı deyilmək istənilmişdir. Yəni üzüm bitkisi (meyvəsi) insanın bioloji qida tələbatının ödənilməsində çox vacib olan önəm daşımışdır. Hətta o dərəcədə önəm daşımışdır ki, üzümdən sadəcə yox, fiziki tərkibinin dəyişdirilməsi yolu ilə də qida kimi istifadə olunmuşdur. Hətta bu amil xalqımızın folkloruna da dini məzmunlu ibrətamiz rəvayət kimi-mənqəbə şəklində daxil olmuşdur. İsmayıl müəllimin həmin mənqəbəni kitaba salması da çox təsirli alınmışdır. Xəlifə Həzrəti Əlinin (ə) "Meyvəsi halal, şərabı haram olan meyvə" adı altında təqdim olunan üzümlə bağlı hikmətamiz söhbətdə deyilir:

- "Günlərin birində Həzrət Əli (ə) bir xristianın qonağı olur. Ev sahibi süfrəyə üzüm gətirir və Həzrəti Əli (ə) üzümü yeyir. Sonra o, süfrəyə üzümdən hazırlanmış şərab gətirir. Həzrəti Əli (ə) buyurur ki, haramdır!

Xristian təəccüblə:

- Siz müsəlmanları başa düşə bilmirəm. Üzüm halal, içkisi isə haramdır? Halbuki bu da ondan hazırlanır...

Həzrəti Əli (ə) buyurur:

- Yoldaşın varmı?
- Bəli var.
- Qızın varmı?
- O da var.
- İkisi də gəlsin bura.

Ev sahibinin yoldaşı və qızı gələndə Həzrəti Əli (ə) ona deyir:

- Bax, bu qız bu anadandır. Amma görürsən ki, "Allah sənə anasını halal, qızını isə haram buyurmuşdur."

Xristian bir anlıq eşitdiyindən tutulub qalır, nə deyəcəyini bilmir və xəlifəyə qarşı dolmuş gözlərilə baxmağa başlayır...

Və əlindən öpüb müsəlmanlığını elan edir" (səh.181).

Göründüyü kimi, İ.Q.Məcidli bu mənqəbəni kitaba salmaqla həm onu oxunaqlı etmiş, həm də "üzüm və insan" qarşıdurmasında üzümün tarixən insan həyatında oynadığı mühüm rolu qabartmış və bundan doğan folklor motivlərini də buraya qatmaqla, əslində onu demək istəmişdir ki, hətta üzüm xalqımızın folklorunda da, dini-mənqəbəvi hekayət halı alaraq yaşamaqdadır.

Kitabda dəyərli folklor mətninin verilməsi, şeirdə, ədəbiyyatda da üzümün, meynənin əks olunması kimi məsələlərə toxunması da bir daha onu isbat edir ki, folklorumuzda, ədəbiyyatımızda bu bitkiyə bu qədər önəm verilməsinin köklü əsasları vardır. Bu, həm də onu göstərir ki, üzüm xalqımızın önəm verdiyi bir bitki, ölkəmiz də onun əsil vətəni olmuşdur. Əlbəttə, bütün bunlara İsmayıl müəllim tarixi faktora söykənməklə mühüm yer ayırmışdır ki, bu da əsərdə tarixilik və bədiilik tellərinin bir-birini tamamladığına sübutdur.

"Azərbaycan üzümçülüyünün tarixindən" adlı fəsilin ilk abzasına müraciət etmək dediklərimizin həqiqiliyinə əsas verir:

- "Xalqımızın özünəməxsus qədim əkinçilik mədəniyyətinin olmasından Latın, Yunan, Suriya, Ərəb, Fars, Türk və digər millətlərin alimlərinin əsərlərində kifayət qədər məlumatlar vardır.

Qədim əlyazmalardan göründüyü kimi hələ eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəllərinə yaxın Azərbaycanın Urmiya gölü ərazisində üzümçülük yüksək inkişaf səviyyəsinə çatmışdı. Qədim Aşşur kitabələrində, II Aşşurnasirapalın, III Salmanasarın və digər Aşşur hökmdarlarının yazılarında şərab vergisinin adının çəkilməsi yuxarıda dediklərimizi bir daha təsdiq edir.

II Sarqonun məlumatlarına görə eramızdan əvvəl 714-cü ildə o, Urartu üzərinə yürüş zamanı mannalılar Assuruya qoşunlarını un və şərabla təchiz etmişdilər. Hətta Mixi yazılarında da Manna şərabı haqqında qeydlər vardır. Yunan alimi Herodot Azərbaycan üzümünün bolluğu və keyfiyyətinin İran, Babilistan və Yunanıstan kimi ölkələrdəki məşhurluğunu göstərmişdir" (səh.11).

Bütün bunlara baxmayaraq, Azərbaycanda üzümçülüyə münasibət həmişə eyni olmamışdır, yəni dövrün siyasi quruluşundan




asılı olmuşdur. Bu səbəbdən də ölkəmizdə üzümçülük gah tərəqqiyə, gah da tənəzzülə uğramışdır. Hələ Ərəb xilafəti dövründə Azərbaycanda üzümçülük, xüsusən də şərabçılıq böyük tənəzzülə məruz qalmışdır.

Kitabın "Azərbaycan üzümçülüyünün tarixindən" fəslinin diqqət çəkən bölmələrindən biri də "Azərbaycan üzümçülüyünün Heydər Əliyev dövrüdür". Bu bölmədə müəllif ölkəmizdəki üzümlüklərin sahəsini və üzüm istehsalını 1913-cü ildən 2006-cı ilədək qrafik şəkildə əyani əks etdirmişdir:

-" Qrafikdən aydın olur ki, hələ keçən əsrin əvvəllərində, yəni 1913-cü ildə Azərbaycanda üzümlüklərin sahəsi 23,9 min hektar, illik üzüm istehsalı 100 min tondan artıq idisə, 1982-ci ildə üzümlüklərin sahəsi 207,7 min hektara, illik üzüm istehsalı isə 2 milyon 126 min ton civarında olmuşdur ki, onun da 1 milyon 820 min tonu (85,98%) texniki üzüm sortu təşkil etmişdir" (səh. 40).

Məhz elə ona görə də İsmayıl Məcidli haqlı olaraq respublikamızda ixtisaslaşdırılmış kənd təsərrüfatının başlanğıc tarixini Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bağlayır: - "Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin illərdə xalqımızın əvəzsiz sərvəti olan torpaqlarımızdan daha səmərəli, təsərrüfatçılıqla, düzgün istifadə edilməyə başlanmışdı. Məhz həmin illərdə Azərbaycanda kənd təsərrüfatının, o cümlədən üzümçülüyün inkişaf etdirilməsinin mümkünlüyü sübut edildi və bu sahədə əsil dönüş yarandı. Onun həyata keçirdiyi aqrar siyasətin başlıca məqsədi ölkə əhalisinin daha yaxşı yaşamasını təmin etmək idi. Elə ona görə də hamı aqrar sahədə uzun illər davam edən geriliyin qısa bir müddətdə aradan qaldırılması işinə səfərbər edilmişdi...".

...Aşağıdakı qrafikdən əyani olaraq göründüyü kimi Azərbaycan üzümçülüyü məhz həmin illərdə öz "qızıl dövrünü" yaşamışdır (səh. 39).

Elə müəllifin "Kəhrəba salxımların göz yaşları" bölməsində yazdığı kimi:

- "Təəssüf ki, bla bir deyim var: - "Sən saydığını say, gör fələk nə sayır?"...

-"...Demə, Azərbaycanda üzümçülük məhsullarının, ən başlıcası isə şərabçılıq sənayesinin İttifaq bazarında liderlik etməsi bir çox ölkələr kimi qonşu Ermənistan və Gürcüstanda da qısqanclıq hissləri yaradırmış. Azərbaycan üzümünün və keyfiyyətli şərablarının İttifaq əhalisi tərəfindən birmənalı olaraq həvəslə istehlak edilməsi onların bazarlarına güclü təsir edirdi.

1982-ci ildə respublika rəhbərliyinin dəyişilməsi, yatmayıb məqam gözləyən düşmən üçün bəd əməlini həyata keçirməyə sanki bir stimul oldu və o, öz "sözünü" deyə bildi...

Nəhayət ki, həmin qara qüvvələrin məkrli planlarını həyata keçirmək məqsədilə Sovet İttifaqı KP MK-nın "Sərxoşluğun və alkoqolizmin aradan qaldırılması haqqında" 7 may 1985-ci il qərarı verildi. Və elə bu mənfur qərarla da, keçmiş İttifaq sanki öz "qəbrini" qazaraq, həyatına xitam verdi və uçuruma yuvarlandı..." (səh. 42).

Monoqrafiyanın "Kəhrəba salxımların göz yaşları" bölməsi hər bir oxucusunda nə qədər bədbin hisslər yaşatsa da sonluğu bir o qədər nikbin duyğular oyadır:

-"...Həyat "Özgəsinə quyu qazan, quyuya özü düşər" məsəlinin necə də doğru deyim olduğunu bir daha sübuta yetirdi. Bu çirkin qərar respublikamıza qarşı yönəldilməsinə baxmayaraq, bütün İttifaqı öz "hiyləgər" icraçıları ilə birgə tarixin arxivinə atdı..." (səh. 42).

-"Nəticə nə qədər acı və kədərli olsa da, öz yeraltı və yerüstü sərvətləri ilə düşmənlərində ərslər boyu qısqanclıq hissləri yaşadan, başı daim bəlalarda olan Odlar Yurdu öz uzaqgörən, istedadlı, parlaq dövlətçilik təfəkkürünə malik rəhbəri - Heydər Əliyevin yorulmaz və gərgin əməyi sayəsində siyasi böhranın cəngindən xilas ola bildi.

Tarixin hökmünə bax ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin ölkəmizin birinci müstəqilliyində həyata keçirmək istədikləri və başa çatdıra bilmədikləri torpaq islahatları, ölkəmizin ikinci müstəqilliyi dövründə ikinci dəfə hakimiyyətə gəlmiş Ulu öndər Heydər Əliyevin çiyinlərinə düşdü və bu gün də onun siyasi kursunun layiqli davamçısı olan İlham Əliyev tərəfindən uğurla davam etdirilir" (səh. 49).

Göründüyü kimi, müəllif tarixi məxəzlərə müraciət yolu ilə üzümün vətəni Azərbaycan olduğunu əsaslandırmışdır. Bu, həm də o deməkdir ki, "...üzümün tarixu insan tarixi kimi qədimdir..." deyimi əslində Azərbaycan insanı ilə üzümün tarixinin bir yerdə olmasını işarələyir. Bu nə deməkdir? İnsanın tarixi əslində insanlığın, bəşəriyyətin, mədəni insanın-mədəniyyətin tarixi deməkdir. O mədəniyyətin içərisinə insanın təbiəti özünə ram etməsi məsələsi də daxildir. Yəni insan üzümü kəşf edib,ondan kimyəvi proseslərin köməyilə spirt-şərab almağı da düşünüb-tapıb. Bax, üzümün tarixi dedikdə məhz bu amil nəzərdən qaçmamalıdır. Yoxsa ki, elə fiziki-təbii-bioloji halda üzüm elə üzümdür də...Üzümdən təbii halda kişmiş, mövüc, doşab, sirkə və s. məhsulların hazırlanması da insanın mədəni məişət tarixinin tərkib hissəsi kimi düşünülməlidir. Bəli, bax bu mənada üzümün tarixi insan(lıq) tarixilə müqayisədə götürülməlidir.

Elə bu kimi hallar da bir aqraq elmlər mütəxəssisi kimi İsmayıl Məcidlinin monoqrafiya obyektindən kənarda qalmamış, "Milli mətbəximizdən" adlı fəslində "Üzümdən hazırlanan məhsullar" adı altında 20-dən çox məhsulun adı verilmişdir:

- "Xalqımız ən qədim zamanlardan bəri insanlara gümrahlıq verən, orqanizmi sağlamlaşdıran və iştahanı artıran dadlı və ətirli üzüm şirə və şərbətlərindən istifadə etmişlər. Bu içkilər onlara gümrahlıq vermiş, sağlamlaşdırmış və iştahalarını artırmaqla yanaşı bir çox xəstəliklərdən xilas etmişdir. Bunlardan əlavə insanlarımız üzümdən doşab (bəkməz), abqora, qoraba, sirkə, riçal, sucuq, mürəbbə, cem, kişmiş, mövüc və s.məhsullar hazırlayırlar.

Tədqiqatlar nəticəsində üzümdə onun dad və aromatını müəyyən edərək spirtli və spirtsiz içkilər üçün dəyərli xammal edən 150 element aşkar edilmişdir. Sözsüz ki, bu dəyərlər üzümün sortundan, becərildiyi torpaq-iqlim şəraitindən və vaxtında aparılmış aqrotexniki qulluqdan çox asılıdır" (səh.144).

Üzümdən hazırlanan məhsulların da adlarını verən alim onların hər birinin hazırlanması haqda da ümumi məlumatlar verməyi yaddan çıxarmır ki, bütün bunlar da oxucularda bu barədə ətraflı və dolğun məlumatlar formalaşdırır. Məsələn, bəlkə də kişmişdən söz düşəndə, biz bu barədə hər şeyi bildiyimizi zənn edirik. Amma müəllifin "kişmiş" başlığı altında aşağıda verdiklərini oxuduqda, bir daha məlumat bazamızın daha da genişləndiyinin fərqində olarıq:

-"Tumsuz ağ və qara üzümdən günəşin altında qurutmaqla hazırlanan məhsullardan biri kişmişdir. Onun tərkibində 76-80 %-ə qədər şəkər vardır. Qurudulmuş üzümün kaloroliyi çox yüksəkdir, 1 kq-da təxminən 3250 kalori olur. Məşhur Naxçıvan qırmızı kişmişinin tərkibində şəkər 80%-dən çox, C vitamini isə 5,5 faizədəkdir. 100 qram kişmişdə 270-290, 100 qram üzümdə isə 70 kalori enerji vardır. Tumsuz ağ üzümdən səbzə, qara üzümdən isə şahanə adlı kişmiş növləri hazırlanır...

- İri giləli tumlu üzüm qurusu mövüc adlanır. Mövüc hazırlamaq üçün adətən Bəndi, Arna-qırna, Ağ aldərə və Qara aldərə, kişmiş hazırlamaq üçün isə Ağ kişmiş və Qırmızı kişmiş sortlarından istifadə edilir" (səh. 144-145).

Azərbaycanlının süfrəsini üzümdən hazırlanmış məhsullarsız təsəvvür etmək qeyri-mümkündür. Bu məhsullar təkcə öz qidalılığına və keyfiyyətlərinə görə süfrələrimizin bəzəyi deyil, həm də şəfaverici qabiliyyətləri ilə sağlamlığımızın, min bir dərdimizin dərmanıdırlar. Kitabın maraqlı və həm də oxunaqlı fəsillərindən biri də məhz elə "Min bir dərdimizin dərmanı" bölməsidir. Burada müəllif bu sehirli bitkinin insanların həyat və məişətindəki rolunu qeyd etməklə yanaşı, onun insan orqanizmi üçün olduqca faydalı bir meyvə və eləcə də bir çox xəstəliklərin qarşısının alınması ilə müalicəsində də əvəzsiz xüsusiyyətlərə malik olmasını geniş şərh etmişdir.

Bu bölmənin ən diqqət çəkən hissəsi "Üzüm çəyirdəyinin faydaları"dır:

- "Üzüm ən faydalı meyvələrdən biridir. Lakin mütəxəssislərin fikrinə görə, üzüm çəyirdəkləri üzümün özündən də faydalıdır. Onun çəyirdəyi şişdən soyuqdəyməyə qədər bir çox xəstəliklərin müalicəsində istifadə olunur...

...Alimlər sübut edib ki, üzümün tərkibində olan faydalı maddələrin 80%-i məhz onun çəyirdəklərindədir...

... Onlardan fayda almaq üçün üzüm yedikdə çəyirdəkləri yaxşı çeynəmək lazımdır.Yalnız bu halda onların tərkibində olan faydalı maddələr orqanizm tərəfindən tam mənimsənilə bilər" (səh. 172-176).

Bundan başqa, bir alim-aqronom kimi də İsmayıl Məcidli kitabda üzüm bitkisinin aqrotexniki qulluq qaydalarından da genişliklə bəhs etmişdir ki, bu da üzümçülük təsərrüfatlarında çalışanlara əməli-praktiki cəhətdən çox faydalı məsləhət kitabı kimi dəyərlidir.

İnanırıq ki, İsmayıl Məcidlinin "Üzüm və insan" kitabı istər humanitar sahənin, istər də aqrar sahənin mütəxəssislərinin marağını çəkməklə, ümumi oxucu kütləsinin stolüstü kitabı kimi seviləcəkdir.



*Şakir ALBALIYEV,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*